# IV BÖLMƏ SAHİBKARLIQ FƏALİYYƏTİ, AQROBİZNES VƏ TRUZİMİN İNKİŞAFI

UOT 334.7, 311.216

*Ənvər Sadıq oğlu SALAHOV*
*dosent, Azərbaycan Dövlət İqtisad Universiteti,*

*Nicat Səxavət oğlu KAMALLI*
*Azərbaycan Kooperasiya Universiteti*

## KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ ƏMƏK ÖDƏNİŞİNİN UÇOTUNUN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – müasir dövrdə ölkəmizin iqtisadi inkişafında kiçik və orta sahibkarlıq subyektlərindən olan gözləntiləri araşdırmaqla, onlara aid olan müəssisələrdə mühasibat uçotunun təşkilinin təhlil edilməsindən və daha dərin formada əməyin ödənişinin təşkili məsələlərinin araşdırılaraq, bu məsələlərin hal-hazırda formalaşmış olan hüquqi və normativ bazalara uyğun təkmilləşdirilməsi yollarının göstərilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası** – müəssisədə əməyin təşkil edilməsinə və onun ödənişinə, həmçinin də bu sahədə mühasibat uçotunun təşkili və aparılması məsələlərinə toxunan Azərbaycan Respublikasının Qanunlarına, Nazirlər Kabinetinin müvafiq qərarlarına və əlaqədar nazirliklərin müəyyən etdikləri qaydalara uyğun olan müddəalara əsaslanmaqla, mövcud vəziyyətin araşdırılmasından və bu əsasda kiçik və orta sahibkarlıq subyektlərində əməyin ödənişi və uçotu metodikasının hazırlanmasından ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** –əməyin ödənişinin təşkili və uçotuna dair məqalədə göstərilən metodikanın kiçik və orta sahibkarlıq subyektləri hesab olunan müəssisələrdə tətbiq edilməsi imkanlarının mövcud olmasından ibarətdir ki, bunların da real iqtisadiyyatda həyata keçirilməsi müəssisədə çalışan işçi heyətin əməyinin ödənilməsində diferensiallıqla müasirliyin vəhdətini təmin edər və onun uçotunun müasir standartlara uyğun aparılmasına şərait yaradar.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – kiçik və orta sahibkarlıq subyektlərində əməyin ödənişinin təşkili və uçotuna dair məqalədə göstərilən metodikanın bu kontekstdə ilk dəfə işlənməsi ilə bağlıdır.

**Tədqiqatın nəticələri** – Kiçik və orta sahibkarlıq subyektlərinin biznes fəaliyyətinin bütövlükdə ölkə iqtisadiyyatının mühüm tərkib hissəsini təşkil etməsi qeyd edilərək, onlara aid edilən müəssisələrdə çalışan işçilərin əməyinin ödənişinin təşkil edilməsində vahid tarif cədvəlindən istifadə edilməsi əməyin ödənişində vacib yanaşma hesab edilən diferensiallıq prinsipinin təmin edilməsi ilə yanaşı, eyni zamanda onun müasir iqtisadi və sosial şəraitə uyğunluğunu da təmin edir. Buna müvafiq olaraq, əmək ödənişinin təşkilinə dair burada göstərilən metodiki yanaşmaların kiçik və orta sahibkarlıq subyektlərində tətbiq edilməsi onların biznes fəaliyyətinin yaxşılaşdırılmasına yeni imkanlar yaratmaqla, gəlirlərinin yüksəldilməsinə səbəb ola bilər. Əmək ödənişinin göstərilən metodikaya uyğun təşkil edilməsi onun uçotunun müasir standartlara uyğunlaşdırılmasına şərait yaradacaqdır.

***Açar sözlər – kiçik və orta sahibkarlıq subyektləri, vahid tarif cədvəli, əməyin ödənişi.***

### *Giriş*

Müasir dövrdə iqtisadiyyatın inkişafında kiçik və orta sahibkarlıq əhəmiyyətli rol oynayır. İqtisadiyyatda kiçik və orta sahibkarlıgın xüsusi çəkisinin artırılması ölkənin iqtisadi inkişafının tənzimlənməsinin priopitet məsələlərindən hesab olunur. Milli iqtisadiyyatın inkişafının strateji yol xəritəsində kiçik və orta sahibkarlıgın inkişafının hədəfləri müəyyən olunmuş və onlara nail olunması tədbirləri içərisində mühasibat uçotunun təşkili və düzgün aparılması məsələsi də qeyd edilmişdir. Kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotunun müasir tələblər səviyyəsində qurulması onların inkişaf etdirilməsində və fəaliyyətinin genişləndirilməsində mühüm amillərdən biri kimi diqqəti cəlb edir.

**Kiçik və orta sahibkarlıq subyektlərinin ölkənin iqtisadi inkişafında rolu**

Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 saylı Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” ölkəmizdə iqtisadi inkişafın müasir prioritetlərini istiqamətləndirən mühüm sənədlərdən biridir. Strateji Yol Xəritəsi özündə 2025-ci ilədək olan dövr üçün iqtisadiyyatın inkişafının əsas strateji istiqamətlərini və 2025-ci ildən sonrakı dövr üçün uzunmüddətli hədəf baxışlarını əhatə edir [5]. 2017-2020-ci illərdə Strateji Yol Xəritəsi üzrə göstərilmiş iqtisadi inkişaf strategiyasının və ona aid olan çoxsahəli tədbirlər planının həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı xeyli inkişaf etmiş, 2020-ci ildə bütün dünya iqtisadiyyatını ciddi tənəzzülə uğradan pandemiyanın ölkəmizdəki mənfi təsirlərinə baxmayaraq, burada göstərilən hədəflərə nail olunmuşdur. Müasir dövrdə təkcə Azərbaycanda deyil, həmçinin bütün dünyada böyük heyrətlə qarşılanmış 44 günlük Vətən Müharibəsində şanlı Azərbaycan Ordusunun göstərdiyi əzəmətli qəhrəmanlıq və yenilməz şücaəti ilə Qarabağın düşmən əsarətindən azad edilməsi ölkəmizin ardıcıl və davamlı iqtisadi inkişafının nəticələri ilə bilavasitə bağlıdır. Əgər ölkəmizin iqtisadiyyatı yüksək səviyyədə inkişaf etməsəydi, onda son dərəcə müasir silahlarla təchiz edilmiş ordu yaratmaq və onun yüksək səviyyədə inkişafına nail olmaq, həmçinin də müharibə dövründə ordunun ardıcıl, fasiləsiz və davamlı təchizatını təmin etmək qeyri-mümkün olardı.

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi ölkə iqtisadiyyatının inkişafının ümumi istiqamətlərini əks etdirən əsas strateji yol xəritəsindən və iqtisadiyyatın daha çox prioritet hesab edilən 11 sektoruna aid olan xüsusi strateji yol xəritələrindən ibarətdir. Belə prioritet əhəmiyyətə malik olan sahələrdən biri də kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf etməsi və olkə iqtisadiyyatında onların xüsusi çəkisinin yüksəldilməsindən ibarətdir. Ona görə də ölkə iqtisadiyyatının daha çox prioritet kəsb edən 11 sektoru üzrə qəbul edilmiş strateji yol xəritələrindən biri də “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”dir. Bu strateji yol xəritəsində ölkəmizdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinin mühüm əhəmiyyətə malik olduğu qeyd edilərək, göstərilir ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrdə ölkəmizdə davamlı iqtisadi inkişafın təmin edilməsində kiçik və orta sahibkarlığın əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır [6, s. 290].

Ölkə iqtisadiyyatının inkişafında kiçik və orta sahibkarlıq subyektlərinin tutduğu mövqeyin statistik təhlilinə əsaslanaraq, Strateji Yol Xəritəsində qeyd edilir ki, ölkənin gələcək inkişafında kiçik və orta sahibkarlıq subyektlərinin payı son dərəcə böyük əhəmiyyət kəsb edir. Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin və bütövlükdə, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və effektiv təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması atılmalı olan vacib addımlardandır [6; s. 296].

Kiçik və orta sahibkarlığın inkişafının burada göstərilən prioritet hədəflərinə nail olmağın mühüm məsələlərindən biri kiçik və orta sahibkarlıq subyektlərinin biznes fəaliyyətində düzgün mühasibat uçotunun aparılmasının təmin edilməsindən ibarətdir. Bütövlükdə götürüldükdə bütün sahibkarlıq subyektlərində onların biznes fəaliyyətinin mühasibat uçotunda düzgün əks etdirilməsi dövlət büdcəsinin gəlirlərinin formalaşdırılması ilə birbaşa bağlıdır. Sahibkarlıq subyektlərində mühasibat uçotunun necə aparılmasının vəziyyəti ölkə başçısının da diqqətini cəlb etmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 06 Avqust 2020-ci il tarixdə ölkəmizin iqtisadi inkişafına həsr edilmiş müşavirədə qeyd etmişdir ki, "sahibkarların mühasibatlığını kölgə iqtisadiyyatından ağ iqtisadiyyata keçirməsi səmərəsini verdi". O, çıxışında belə demişdir: "Sevindiricidir ona görə ki, bizim özəl sektorumuz artıq vergi verməyə öyrəşir. Onlara edilən güzəştlər, öz mühasibatlığını kölgə iqtisadiyyatından ağ iqtisadiyyata keçirmək üçün verilən müddət artıq öz səmərəsini verdi. Biz əlbəttə ki, bəri başdan cəza tədbirləri tətbiq edə bilərdik və bunun nəticəsində bir çox şirkətlər çətin vəziyyətə düşə bilərdi. Ancaq onlara vaxt, izahat və tövsiyələr verildi - bundan sonra şəffaf işləməlisiniz, gəlirləri gizlətməməlisiniz, kölgə mühasibatlığı yaratmamalısınız. Təmiz işləyin ki, həm vicdanınız rahat olsun, həm də halal pul qazanın. Azərbaycanda halal pul qazanmaq üçün kifayət qədər imkanlar var" (Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 06 Avqust 2020-ci il tarixli müşavirədə çıxışından: [7]. Burada verilən fikirlərdən aydın olur ki, müasir dövrdə iri, orta və kiçik sahibkarlıq subyektlərinin hər birində mühasibat uçotunun dəqiq və düzgün aparılması ölkə iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

**Kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotunun təşkili əsasları**

Kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotunun təşkili və inkişafı məsələləri "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri ilə tənzimlənir. Qanunun "Mühasibat uçotunun məcburiliyi" adlanan 3-cü maddəsində bu barədə belə göstərilir: "Bütün mühasibat uçotu subyektlərində mühasibat uçotunun bu Qanunda müəyyən edilmiş müvafiq mühasibat uçotu standartlarına və ya sadələşdirilmiş uçotun qaydalarına uyğun aparılması məcburidir" [4; s. 3]. Bundan əvvəldə isə, 1-ci maddədə mühasibat uçotu subyektlərinin kimlərdən ibarət olduğu barədə belə yazılmışdır: "**Maddə 1. Qanunun təyinatı.** Bu Qanun mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (bundan sonra mətndə - mühasibat uçotu subyektləri adlandırılacaq) tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi qaydalarını tənzimləyir" [4; s. 3].

Qanunun burada verilmiş məzmunundan göründüyü kimi, bütün müəssisələrin, təşkilatların, sahibkarlıq subyektlərinin, hətta hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və həmçinin də belə sahibkarlıq subyektlərinin tərkib hissələri olan kiçik və orta sahibkarlıq subyektlərində də biznes-təsərrüfat fəaliyyətləri öz əksini onların aparmalı olduqları mühasibat uçotunda tapmalıdır.

4 may 2018-ci ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş dəyişikliklərdən sonra bütün müəssisə, təşkilat və sahibkarlıq subyektlərində olduğu kimi, kiçik və orta sahibkarlıq subyektləri olan müəssisələrdə də mühasibat uçotunun təşkili və onun inkişafının tənzimlənməsində yeni istiqamətlər müəyyən edilmişdir. Belə subyektlərdə mühasibat uçotunun necə tənzimlənməli olduğu Qanunun **"Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi"** adlanan 4-cü maddəsinin aşağıda verilmiş məzmunundan irəli gəlir:

*"**Maddə 4. Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi***

*4.1. Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində dövlət tənzimləməsinin əsas məqsədi Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları və uçot qaydaları əsasında ölkədə maliyyə hesabatlarının tərtib olunmasını və mühasibat uçotunun aparılmasını təmin etməkdən ibarətdir"* [4; s. 4].

Qanunun 4.1-ci maddəsinin burada verilmiş məzmunundan göründüyü kimi, hal-hazırda ölkəmizdə mühasibat uçotu və maliyyə hesabatı 3 növ beynəlxalq standartlar əsasında tənzimlənir:

1) Maliyyə Hesabatlarının Beynəlxalq Standartları,

2) Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları,

3) İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları.

Kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotu Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (8) və onun əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən hazırlanmış “Kiçik və orta sahibkarlıq subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları” üzrə təşkil olunmalıdır [9].

**Kiçik və orta sahibkarlıq subyektlərində əmək ödənişinin uçotunun hüquqi və normativ tənzimlənməsi**

Azərbaycan Respublikasının ərazisində yerləşən müəssisə və təşkilatlarda əmək və əməyin ödənişinin təşkili və uçotu məsələləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsi, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu və digər bu kimi qanunların tələbləri ilə tənzimlənir. Azərbaycan Respublikasının burada göstərilən qanunlarında əməyin, onun ödənişinin və onların uçotunun bu və ya digər məsələlərinin dövlət tərəfindən qanunvericilik əsaslarla tənzimlənməsinin bir sıra mühüm məsələləri öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində əmək münasibətlərinin və əmək ödənişi məsələlərinin ümumi əsasları [2], Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəssisədə çalışan işçilərin əməkhaqqı şəklində əldə etdikləri aylıq gəlirlərinin vergiyə cəlb edilməsi məsələləri [3, s.152-165], Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəssisənin gəlirlərindən işçilərin əməyinin ödənişinə vəsaitlərin ayrılması məsələləri [1, s. 115-119], “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda əmək və onun ödənişi üzrə təsərrüfat əməliyyatlarının sənədləşdirilməsi və uçotunun ümumi əsasları [4] hüquqi baxımdan təsbit edilmişdir.

Göstərilən Qanunların icra edilməsi prosesləri Azərbaycan Respublikasının Nazirlər Kabineti və onun tabeçiliyində olan əlaqədar nazirliklər tərəfindən təmin edilir. Bu Qanunların tələblərinə uyğun olaraq və onların icrasını tənzimləmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti əmək və onun ödənişinə aid lazımi qərarlar qəbul edir. Nazirlər Kabinetinin əmək və onun ödənişinə aid qərarları Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə hazırlanır və bu Nazirlik müvafiq qərarların müəssisə və təşkilatlarda necə icra edilməsinə nəzarət edir.

Müasir dövrdə ölkə iqtisadiyyatının bütün sahələrində əməyin ödənişi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işlənib hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Vahid Tarif Cədvəli (VTC) əsasında aparılır. Əməyin Ödənilməsinin Vahid Tarif Cədvəli ölkəmizdə ilk dəfə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 1993-cü ildə qəbul etdiyi “Müəssisələrdə əməyin ödənilməsində Vahid Tarif Cədvəlinin tətbiqi haqqında” 205 saylı qərarı əsasında tətbiq edilməyə başlanmışdır. Həmin tarixdən keçən dövr ərzində göstərilən qərarda bəzi dəyişikliklər edilərək, Vahid Tarif Cədvəli daha da təkmilləşdirilmişdir. Sonuncu dəfə 1 sentyabr 2019-ci il tarixdən əməyin ödənişinin minimal məbləğinin 250 manat müəyyən edilməsi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07 avqust 2019-cu il tarixli, 345 saylı qərarı ilə əməyin ödənilməsinin yeni vahid tarif cədvəli təsdiq edilmişdir [10]. Müasir dövrdə tətbiq olunan vahid tarif cədvəlinin forması cədvəl 1-dəki kimidir.

Verilmiş məlumatlardan göründüyü kimi, Vahid Tarif Cədvəli əməyin ödənilməsi dərəcələrindən və hər bir dərəcəyə müvafiq müəyyənləşdirilmiş aylıq tarifdən (aylıq vəzifə maaşının məbləğindən) ibarətdir. Vahid Tarif Cədvəlində əmək ödənişinin 19 tarif dərəcəsi nəzərdə tutulmuşdur. Əmək ödənişinin Vahid Tarif Cədvəli həm büdcədən maliyyələşdirilən, həm də özünümaliyyələş-

dirmə prinsipləri və təsərrüfat hesabı ilə işləyən kommersiya tipli müəssisələrdə tətbiq edilir. Büdcədən maliyyələşdirilən müəssisələrdə Vahid Tarif Cədvəli bilavasitə olduğu kimi, digər müəssisə və təşkilatlarda isə dolayısı yolla tətbiq edilir.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında əməyin ödənilməsinin Vahid Tarif Cədvəli**

*(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07 avqust 2019-cu il tarixli, 345 saylı qərarı ilə təsdiq edilmişdir)*

| Əməyin ödənilməsi dərəcələri | Aylıq tarif (vəzifə) maaşı, manatla | Əməyin ödənilməsi dərəcələri | Aylıq tarif (vəzifə) maaşı, manatla |
|---|---|---|---|
| 1 | 2 | 1 | 2 |
| 1 | 250 | 11 | 375 |
| 2 | 260 | 12 | 390 |
| 3 | 271 | 13 | 406 |
| 5 | 294 | 15 | 440 |
| 6 | 306 | 16 | 457 |
| 7 | 319 | 17 | 529 |
| 8 | 332 | 18 | 666 |
| 9 | 346 | 19 | 906 |
| 10 | 360 | | |

***Mənbə:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07 avqust 2019-cu il tarixli, 345 saylı qərarı [10]*

Özünümaliyyələşdirmə və təsərrüfat hesabı prinsipləri ilə işləyən kommersiya tipli müəssisələrdə Vahid Tarif Cədvəlində müvafiq əmək ödənişi dərəcələri üzrə göstərilən vəzifə maaşı məbləğləri həmin dərəcələr üzrə əmək ödənişinin dövlət tərəfindən müdafiə edilən minimum məbləği hesab edilir. Belə ki, özünümaliyyələşdirmə və təsərrüfat hesabı üsulu ilə işləyən müəssisələrdə işçilərə ən azı onların malik olduğu əmək ödənişi dərəcəsinə uyğun məbləğdə vəzifə maaşı ödənilməlidir. Müəssisənin maliyyə vəziyyətindən asılı olaraq, işçilərin əməyinin ödənişinə daha çox vəsait yönəldilir və bu halda VTC-də nəzərdə tutulmuş əmək ödənişi dərəcələrinə uyğun olan vəzifə maaşlarının məbləği proporsional qaydada artırılır.

Büdcədən maliyyələşdirilən müəssisə və təşkilatlarda vəzifə maaşları və işçilərin əməkhaqqı, VTC əsas götürülməklə, Respublika Prezidenti tərəfindən vaxtaşırı artırılır. Azərbaycan Respublikasının Prezidentinin 07 avqust 2019-cu il tarixli fərmanı ilə ölkəmizdə əməkhaqqının minimum məbləği 01 sentyabr 2019-cu il tarixdən 250 manat müəyyən edilmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Vahid Tarif Cədvəlində də müvafiq dəyişikliklər edilmişdir. Gələcəkdə ölkəmizdə iqtisadiyyatın daha da inkişaf etməsi nəticəsində əmək haqqının minimum məbləğinin də vaxtaşırı artırılacağı və bununla da Vahid Tarif Cədvəlində də müvafiq dəyişikliklərin ediləcəyi proqnozlaşdırılır.

**Kiçik və orta sahibkarlıq subyektlərində əmək ödənişinin uçotunun təşkili əsasları**

Müəssisə və təşkilatlarda Vahid Tarif Cədvəlinin tətbiq edilməsi üçün hər bir işçiyə VTC üzrə konkret əmək ödənişi dərəcəsi (tarif dərəcəsi) təyin edilir. İşçilərə konkret olaraq, hansı tarif dərəcəsinin verilməsi müəssisədə fəaliyyət göstərən attestasiya komissiyası tərəfindən müəyyənləşdirilir. Konkret işçiyə konkret tarif dərəcəsi verərkən, tarif-ixtisas sorğu kitabçasında onun tutduğu vəzifənin xarakteristikası öyrənilir və işçinin tutduğu vəzifə, yerinə yetirdiyi funksiyalar, təhsili, ixtisası və iş bacarığı nəzərə alınır. Tarif dərəcəsi attestasiya komissiyasının müvafiq qaydada protokollaşdırılan iclasında, işçinin öz iştirakı ilə, ona müəyyən suallar verdikdən sonra müəyyən edilir və müvafiq qərar qəbul edilir. Protokol işçinin şəxsi işində saxlanır. Attestasiya komissiyasının

iclas protokolları əsasında Vahid Tarif Cədvəli üzrə işçilərin əməyinin ödənilməsinin tarif dərəcələri haqqında siyahı tərtib edilir. İşçilərə əməkhaqqı həmin siyahıda göstərilən tarif dərəcələri üzrə verilir.

Kiçik və orta sahibkarlıq subyektləri hesab edilən müəssisələr, bir qayda olaraq, kommersiya tipli müəssisələr olmaqla, onlarda da Vahid Tarif Cədvəli bu qaydalar üzrə tətbiq edilməlidir. Bununla yanaşı, belə müəssisələrdə Vahid Tarif Cədvəlinin tətbiq edilməsinin öxünəməxsus xüsusiyyətləri vardır. Kiçik və orta sahibkarlıq subyektləri hesab edilən kommersiya müəssisələrində Vahid Tarif Cədvəli birbaşa deyil, dolayısı yollarla tətbiq edilir. Bu zaman müəssisənin biznes fəaliyyətinin özəllikləri və orada baş verən təsərrüfat əməliyyatlarının xarakterik xüsusiyyətləri nəzərə alınır. Hətta bir müəssisənin tərkibində mövcud olan müxtəlif işçi kateqoriyalarına münasibətdə Vahid Tarif Cədvəli fərqli əsaslarla tətbiq edilə bilər. Burada ticarət fəaliyyəti ilə məşğul olan kiçik və orta sahibkarlıq subyektində Vahid Tarif Cədvəlinin tətbiq edilməsi məsələlərinə baxdıqda görə bilərik ki, belə müəssisələrdə çalışan işçilər iki fərqli kateqoriyaya bölünür və onların hər birinin əməyinin ödənişində Vahid Tarif Cədvəli müxtəlif əsaslarla tətbiq edilir. Belə ki, ticarət fəaliyyəti ilə məşğul olan kiçik və orta sahibkarlıq subyekti müəssisələrində çalışan işcilər əmək ödənişinin təşkilinə görə: 1) idarə aparatı işçiləri və 2) kütləvi peşə işçiləri olmaqla, iki qrupa bölünür. İdarə aparatı işçilərinə müəssisənin rəhbərliyi və idarəedici heyət, həmçinin mütəxəssislər və xidmətçilər qrupu, kütləvi peşə işçilərinə isə bilavasitə ticarət fəaliyyətini həyata keçirən işçilər: satış məkanlarının müdiriyyəti, satıcılar, kassirlər, nəzarətçilər və digər bu kimi işçi heyəti aid edilir. İdarə aparatı işçilərinin əməyinin ödənişi vaxtamuzd ödəniş qaydasında, kütləvi peşə işçilərinin əməyinin ödənişi isə işəmuzd ödəniş qaydasında təşkil edilir.

Kiçik və orta sahibkarlıq subyektlərində çalışan işçilərin əməyinin ödənişinin vaxtamuzd ödəniş qaydasında təşkili zamanı Vahid Tarif Cədvəlinə əsaslanmaqla tərtib edilərək, müəssisənin idarəedici orqanı tərəfindən təsdiq edilmiş ştat cədvəlindən istifadə edilir. Kiçik və orta sahibkarlıq subyekti olan müəssisədə ştat cədvəli müəssisənin iqtisadiyyat xidməti tərəfindən hazırlanır və müəssisə rəhbəri tərəfindən təsdiq edilir. Burada ayrı-ayrı vəzifələr üzrə aylıq maaş məbləğləri Vahid Tarif Cədvəlində həmin vəzifələrə uyğun gələn tarif dərəcələrinə əsaslanmaqla, müvafiq əmək ödənişi dərəcəsinə aid olan maaş məbləğindən az olmamaqla müəyyən edilir. Gəlirləri normal iqtisadi şəraitə uyğun olan müəssisələrdə ştat cədvəlində ayrı-ayrı vəzifələr üzrə maaşlar müasir sosial-iqtisadi şəraitə uyğun olmaqla, Vahid Tarif Cədvəlində göstərilənlərdən xeyli yüksək məbləğlərlə, həmçinin diferensiallıq prinsiplərinə əməl etməklə müəyyən edilir. Qeyd etmək lazımdır ki, müəssisənin ştat cədvəli onun illik biznes planı ilə sıx qarşılıqlı əlaqədə olmaqla, xərclər smetasının mühüm tərkib hissəsini formalaşdırır. Ştat cədvəlində göstərilən aylıq vəzifə maaşlarının məbləğ etibarı ilə səviyyəsi müəssisənin iqtisadi fəaliyyətinin digər əsas göstəriciləri ilə, xüsusilə də onun gəlirlərinin həcmi ilə ahəngdar olmalıdır. Bütün bunlar kiçik və orta sahibkarlıq subyekti olan müəssisədə çalışan işçilərin aşağıdakı cədvəldə verilmiş ştat cədvəlində öz əksini tapmışdır. (Cədvəl 2).

Cədvəldə verilmiş informasiyalardan göründüyü kimi, bu müəssisə orta sahibkarlıq subyekti olan ticarət müəssisəsidir. Ştat cədvəlində ayrı-ayrı vəzifələr üzrə təyin edilmiş aylıq maaşların məbləği Vahid Tarif Cədvəli üzrə verilmiş tarif dərəcələrinə uyğun olan aylıq vəzifə maaşlarının məbləğindən xeyli yüksəkdir. Məsələn, ticarət üzrə direktor müavini üçün attestasiya komissiyası tərəfindən təyin edilmiş əmək ödənişinin 15-ci dərəcəsinə Vahid Tarif Cədvəlində 440 manat aylıq vəzifə maaşı uyğun olduğu halda, həmin vəzifə üçün ştat cədvəlində 1500 manat aylıq əməkhaqqının ödəniləcəyi nəzərdə tutulmuşdur. Baş mühasib üçün də eyni şərtlərlə, yəni Vahid Tarif Cədvəli üzrə 15-ci dərəcəyə uyğun 440 manat aylıq vəzifə maaşına qarşı, ştat cədvəlində 1500 manat aylıq əməkhaqqının ödəniləcəyi göstərilmişdir. Eyni yanaşma prinsipləri ştat cədvəlində verilmiş bütün vəzifələrə aiddir. Buradan aydın olur ki, ştat cədvəlində ayrı-ayrı vəzifələr üzrə əməyin ödənişi dərəcələri Vahid Tarif Cədvəlinə bilavasitə uyğun olsa da, onlar üçün təyin edilmiş əmək ödənişinin aylıq məbləğləri diferensial olmaqla yanaşı, onlar Vahid Tarif Cədvəli ilə bilavasitə deyil, dolayısı yollarla əlaqələndirilmişdir. Bu xüsusiyyət təkcə kiçik və orta sahibkarlıq subyekti

olan müəssisələr üçün deyil, həmçinin də kommersiya tipli bütün müəssisə və təşkilatlar üçün xarakterik hesab edilir.

*Cədvəl 2*

***Müəssisədə çalışan işçilərin ştat cədvəlinin nümunəsi***

| № | Vəzifə | İşçilərin sayı | VTC üzrə tarif dərəcəsi | VTC üzrə aylıq vəzifə maaşının məbləği | Bir işçinin aylıq əmək haqqı məbləği | Cəmi |
|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| 1 | Direktor | 1 | 16 | 457 | 1700 | 1700 |
| 2 | Ticarət üzrə direktor müavini | 1 | 15 | 440 | 1300 | 1300 |
| 3 | Baş mühasib | 1 | 15 | 440 | 1300 | 1300 |
| 4 | Mühasib | 1 | 11 | 375 | 1100 | 1100 |
| 5 | Mühasib-xəzinədar | 1 | 10 | 360 | 1000 | 1000 |
| 6 | Menecer | 3 | 11 | 375 | 1100 | 3300 |
| 7 | Anbar müdiri | 2 | 10 | 360 | 1000 | 2000 |
| 8 | Mağaza müdiri | 1 | 12 | 390 | 1200 | 2500 |
| 9 | Sürücü-ekspeditor | 2 | 9 | 346 | 700 | 1400 |
| 10 | Xadimə | 1 | 8 | 332 | 500 | 500 |
| 11 | Fəhlə | 2 | 9 | 346 | 700 | 1400 |
| 12 | Katibə | 1 | 8 | 332 | 600 | 600 |
| | **Yekunu:** | **17** | **X** | **X** | **X** | **18100** |
| **Qeyd:** Ştat cədvəli işçilərin sayı **17 (on yeddi) nəfər,** əmək ödənişinə yönəldilən vəsaitin aylıq məbləği **18100 (on səkkiz min bir yüz) manat** olmaqla, direktor tərəfindən təsdiq edilmişdir. | | | | | | |

***Mənbə:*** *Vahid Tarif Cədvəli üzrə verilmiş tarif dərəcələrinə uyğun olan aylıq vəzifə maaşları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Belə bir şəraitdə kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin idarə aparatında çalışan işçilərin əməyinin ödənişinin düzgün təşkil edilməsi üçün hər bir işçinin sərf etdiyi aylıq iş vaxtının operativ uçotu aparılır. Hər ayın sonunda idarə aparatında çalışan hər bir işçinin əmək sərfiyyatını əks etdirən iş vaxtından istifadə cədvəli və ya tabel tərtib edilərək, müəssisənin mühasibat xidmətinə təqdim edilir. Tabeldə hər bir işçinin adı və soyadı, vəzifəsi və onun hər bir iş günü üzrə işləmiş olduğu faktiki iş vaxtının həcm göstəricisi (saatlarla və ya bütövlükdə günlərlə) göstərilir. Bir çox hallarda işçilərin faktiki olaraq işləmiş olduqları tam iş günlərinə “+” işarəsi qoyulmaqla, natamam iş günləri olduğu halda isə tam saatların və dəqiqələrin miqdarı göstərilir. Belə hallarda hər hansı bir konkret işçiyə aid olan aylıq əməkhaqqının məbləğini hesablamaq üçün ştat cədvəlində onun tutduğu vəzifəyə uyğun olan aylıq maaşın məbləği həmin ayda mövcud olan ümumi iş vaxtının miqdarına bölünərək, alınmış məbləğ həmin işçinin faktiki işləmiş olduğu və tabeldə göstərilmiş iş vaxtının sayına vurulur. Qeyd etmək lazımdır ki, müəssisələrdə əsasən bütün işçilər və yaxud, onların böyük əksəriyyəti ay ərzində tam olaraq, başdan-başa bütün iş günlərində vicdanla və intizamlı olmaqla çalışırlar ki, bu da ştat cədvəlində göstərilmiş aylıq vəzifə maaşının tam məbləğinin aylıq əməkhaqqı məbləği kimi qəbul edilməsinə gətirib çıxardır və belə hallarda heç bir bölmə - vurma əməliyyatının aparılmasına ehtiyac olmur.

Aparılan hesablamaların nəticələri əməkhaqqının hesablanması cədvəlinə daxil edilir. Həmin cədvəl işlənib hazırlandıqdan sonra onun yekun informasiyaları əsasında hesablanmış əməkhaqqının yekun məbləği, əməkhaqqından tutulan gəlir vergisinin, işsizlikdən sığortaya, tibbi sığortaya, sosial müdafiə fonduna və digər tutulmaların məbləğləri müvafiq mühasibat müxabirləşmələrində

əks etdirilir və mühasibat informasiyalarının işlənməsi prosedurlarına uyğun şəkildə uçot registrlərinə işlənir.

### *Nəticə*

Beləliklə, kiçik və orta sahibkarlıq subyektlərinin biznes fəaliyyətinin bütövlükdə olkə iqtisadiyyatının mühüm tərkib hissəsini təşkil etməsi qeyd edilərək, onlara aid edilən müəssisələrdə çalışan işçilərin əməyinin ödənişinin təşkil edilməsində Vahid Tarif Cədvəlindən istifadə edilməsi əməyin ödənişində vacib yanaşma hesab edilən diferensiallıq prinsipinin təmin edilməsi ilə yanaşı, eyni zamanda onun müasir iqtisadi və sosial şəraitə uyğunluğunu da təmin edir. Buna müvafiq olaraq, əmək ödənişinin təşkilinə dair burada göstərilən metodiki yanaşmaların kiçik və orta sahibkarlıq subyektlərində tətbiq edilməsi onların biznes fəaliyyətinin yaxşılaşdırılmasına yeni imkanlar yaratmaqla, gəlirlərinin yüksəldilməsinə səbəb ola bilər. Əmək ödənişinin göstərilən metodikaya uyğun təşkil edilməsi onun uçotunun müasir standartlara uyğunlaşdırılmasına şərait yaradacaqdır.

### ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. "Qanun" nəşriyyatı. Bakı, 2016.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. "Qanun" nəşriyyatı. Bakı, 2019.
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 2019-ci il 1 fevral tarixinədək edilmiş dəyişikliklərlə. Bakı, 2019.
4. Mühasibat uçotu haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 2004.
5. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. 6 dekabr 2016-cı il.
6. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. 6 dekabr 2016-cı il.
7. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 6 avqust 2020-ci il tarixli müşavirədə çıxışı: http://mks.az/hr/publidzations/item/11095; 6 avqust 2020.
8. Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları. www.maliyye.gov.az
9. Kiçik və orta sahibkarlıq subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, 9 dekabr 2019.
10. Əməyin Ödənilməsinin Vahid Tarif Cədvəli. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları. 7 avqust 2019-cu il, №345. www.cabmin.gov.az



***Анвер Садых оглы Салахов***
***доцент Азербайджанского Государственного Экономического Университета,***

***Ниджат Сахават оглы Камаллы***
***Азербайджанского Университета Кооперации***


## Вопросы организации оплаты труда и учета заработной платы на малых и средних предприятиях


### *Резюме*

**Цель исследования** - изучить ожидания малых и средних предприятий от экономического развития страны в современное время, проанализировать организацию бухгалтерского учета на их предприятиях и в частности, изучить организацию заработной платы, указать пути ее улучшения в соответствии с существующей нормативно-правовой базой.

**Методология исследования** - основывается на положениях Законов Азербайджанской Республики, соответствующих решениях Кабинета Министров и правилах, установленных соответствующими министерствами, по организации и оплате труда на предприятии, а также по организации и содержанию бухгалтерского учета в данной сфере, разработка методики оплаты труда и ее учета в субъектах малых и средних предпринимательств.

**Важность применения исследования** заключается в возможности применения описанной в статье методологии организации и учета заработной платы на малых и средних предприятиях, внедрение которой в реальном секторе экономики обеспечит единство современности и дифференциации в организации оплаты труда и создает условия для ведение учета в соответствии с требованиями современных стандартов.

**Оригинальность и научная новизна исследования** обусловлена тем, что представленная в статье методика организации и учета заработной платы на малых и средних предприятиях была разработана впервые в этом контексте.

**Результаты исследования** - Отмечая, что предпринимательская деятельность малых и средних предприятий является важной частью экономики страны в целом, использование единого тарифного плана при организации оплаты труда работников на их предприятиях наряду с обеспечением принцип дифференциации. В то же время он обеспечивает его совместимость с современными экономическими и социальными условиями. Соответственно, применение методических подходов к организации заработной платы на малых и средних предприятиях позволяет увеличить их доход за счет создания новых возможностей для улучшения их деловой активности. Организация оплаты труда по данной методике позволит привести его учет в соответствие с современными стандартами.

***Ключевые слова: субъекты малого и среднего бизнеса, единый тарифный план, оплата труда.***

***Anvar Sadig Salahov***
***Associate Professor of Azerbaijan State University,***

***Nijat Saxavat Kamalli***
***Azerbaijan Cooperation University***

## Issues of organizing the registration of wages in small and medium enterprises

***Summary***

**The purpose** of the study is to study the expectations of small and medium enterprises in the economic development of the country in modern times, to analyze the organization of accounting in their enterprises and to study in more depth the organization of remuneration of labor in accordance with the existing legal and regulatory framework. consists of showing.

**Research methodology** - based on the provisions of the Laws of the Republic of Azerbaijan, relevant decisions of the Cabinet of Ministers and the rules established by the relevant ministries on the organization and payment of labor in the enterprise, as well as the organization and maintenance of accounting in this area. development of methods of remuneration and accounting of labor in business entities.

**The importance** of the application of the research is the possibility of applying the methodology described in the article on the organization and accounting of wages in small and medium enterprises, the implementation of which in the real economy will ensure the unity of modernity with differential payroll and modern accounting. create conditions for compliance with standards.

**The originality and scientific novelty** of the research is due to the fact that for the first time in this context the methodology presented in the article on the organization and accounting of remuneration of labor in small and medium enterprises was developed.

**The results of the study** - Noting that the business activities of small and medium enterprises are an important part of the country's economy as a whole, the use of a single tariff schedule in the organization of remuneration of employees in their enterprises, along with ensuring the principle of differentiation At the same time, it ensures its compatibility with modern economic and social conditions. Accordingly, the application of the methodological approaches to the organization of wages in small and medium enterprises can increase their income by creating new opportunities to improve their business activities. The organization of remuneration in accordance with this methodology will allow to bring its accounting in line with modern standards.

***Key words - small and medium business entities, single tariff schedule, remuneration.***